# Axtardığım şeirin müəllifi

**Vaxtilə Əbu Fərəc deyirdi: "Cəmiyyətin bəlası bundadır ki, o, insanı xidmətinə görə mükafatlandırmır, ya ona ləyaqətindən çox-çox artıq, ya da ləyaqətindən qat-qat az mükafat verir".**

Bilmirəm, bəlkə də dilimizin şeir dilinə uyğunluğundanmı, ya insanların ucuz şöhrət vasitəsi olaraq şeiri seçməyindənmi bu qədər söz burulğanında az qala həqiqi söz sərrafları da itib batır, ağı qaradan seçmək çox çətin və qəliz bir məsələyə çevrilir. "Bu elə bir dildir ki,hər sözü bir pəhləvandır" deyən babamız Füzulini "bu söz dahiləri" az qala dediyi sözə peşman edir, dilimizin söz adlı pəhləvanları bu "dahi şəxsiyyətlər"lə hələ qarşılaşmadan qorxusundan siçan deşiyi axtarırlar. "Cansıxıcı kitabları bağlamağı, pis kinodan çıxıb getməyi, qədrini bilməyən insanlardan uzaqlaşmağı bacarmaq lazımdır" - haqlı olaraq Aleksandr Qrin deyirdi.

**Mənə təqdim olunan onlarla kitabların böyük bir hissəsini yalnız müəllifin qəlbini qırmamaqçün, nəzakət xatirinə qəbul etmişəm. Lakin təqdim olunan bir neçə kitab olub ki, qiymətli xəzinə kimi bir qıraqda saxlayaraq, haçansa bu kitabın haqqında yazmağı özümə vicdan borcu hesab etmişəm...**

### *Hələ uzun illər*

bundan əvvəl bir el şənliyində aparıcının söylədiyi "Qız atası olmaq nə çətin imiş" şeirinin müəllifinin kim olduğunu soruşmaq imkanı tapmamışdım orada.Şeir mənə o qədər xoş gəlmişdi ki, çox istəyirdim ki, həmin aparıcını haradasa görüm və müəllifin kimliyini,harada yaşadığını,nə işlə məşğul olduğunu soruşum.Lakin üzərimə düşən həyat-məişət qayğıları səbəbindən və vaxt qıtlığından bu imkanı əldə edə bilmirdim...

Ara-sıra vaxt tapanda, ayda bir kərə keçirilən AYB-nin Şamaxı filialının yığıncağına qatılırdım. Oraya gələn üzvlərin bir neçəsi istər insanlığıyla, istərsə də istedadıyla seçilirdi.Lakin birdən-birə hər adama könül verməmək,dost demək olmur ki...Uzun müşahidələrim zamanı bir nəfər öz sadəliyiylə, öz təvazökarlığı və Allaha bağlılığıyla diqqətimi daha çox çəkmişdi.Ünsiyyət qurduqdan sonra öyrəndim ki, bu şəxs Qobustan rayonunun Ərəbqədim kəndində yaşayan və həmin kəndin tam orta məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində işləyən Hacı Füzuli Soltandır.Halal zəhmətlə, çətin güzaranla yaşadığı alnının cizgilərindən bilinirdi...

### *Bir dəfə*

sosial şəbəkədə paylaşılan şeirlərə nəzər yetirirdim.Birdən diqqətimi bir şeir cəlb etdi: "Qız atası olmaq nə çətin imiş".

Ani bir həyəcanla şeirin ayaq hissəsinə baxaraq, müəllifin kim olduğunu öyrənmək istədim.Çoxdandır ki, qəlbimin dərinliklərində olan şeirin müəllifini tapmışdım...Füzuli Soltan.

O vaxtdan sonra bu səmimi insanla,bu istedadlı şairlə daha da mehribanlaşdıq və münasibətlərimiz dostluq səviyyəsinə qədər gəlib çıxdı. Füzuli Soltan iki kitab müəllifidir. İlk kitabı ilə tanış deyiləm.

"Dünya sözə dönüb qalar" adlı ikinci kitabını avtoqrafla mənə təqdim edib. Həmin kitabı əlimdə vərəqləyirəm. Həyatda olduğu kimi yaradıcılığı da sadə,səmimi üslubda xarakterizə olunur və sözə-sənətə sığınmağı da həyat tərzinə çevirməklə oxucularını da xoş,səmimi hisslərlə çulğalayır.

**...Keçmişdən gəlirəm,-beş yüz il,min il**
**Füzuli babamdan söz gətirmişəm.**
**Keçmişdən gəlirəm,günə bir mənzil,**
**Yolları yormuşam,iz gətirmişəm.**

**...Duran beyinləri çalışdırmağa**
**Maşa gətirmişəm qarışdırmağa.**
**Sönən ocaqları alışdırmağa**
**Seyid ocağından köz gətirmişəm.**

Bütün yaşayışıyla,bütün yaradıcılığıyla müəllif dərk edir ki, bu söz bolluğunun,bu mənəmlik iddiasının uçqunu altından çıxmaq o qədər də asan məsələ deyil.

**"İndi meydanlarda sözlər cəng edir**
**İlahi,bu cəngdən sözümü çıxart.**
**Görsən ki,alovum sönüb səngiyir,**
**Eşib kül altından közümü çıxart"-**

-deyən müəllif nəhayət Ulu Yaradana müraciətlə deyir ki, əgər yolumu azaramsa, elimə, obama xor baxaramsa,o xor baxan gözlərimi çıxartsan belə cəzamı ödəyə bilmərəm.

**Uyarsam fitnəyə,düşərsəm felə,**
**"Eləmə"desəm də məni xar elə**
**Əgər xor baxarsam obaya,elə**
**Basıb barmağını gözümü çıxart.**

Allahın insanlara bəxş etdiyi və naşükür adəm övladının adi sandığı bəzi təbiət olaylarını da şair adi sanmır və duyan üçün,dərk edən üçün bunun bir hikmət,bir dəyər olduğunu oxuculara şeir dili ilə izah etməyə çalışır.



**...Bir daşın dibində novruzgülünə,**
**Bir susuz səhrada yağış gölünə**
**Sığal çəkib bir gözəlin telinə**
**Bir şirin sözə də vurulmaq olar.**

**Çobanın yaylağa köçən çağında,**
**Gecənin qaranlıq bir bucağında**
**Axşamdan qalanan köç ocağında**
**Soyuyan közə də vurulmaq olar.**

Şairin vətənpərvərlik mövzusunda yazdığı şeirlər də özünəməxsusluğu ilə, öz çalarları ilə fərqlənir. "Duman, gəl keç bu dağlardan" şeirinə nəzirə olaraq yazır ki,

**Duman bu dağlardan gəlib keçmədi**
**Bu dağların barı təzələnmədi.**
**Qartalı zirvədə gözüm seçmədi,**
**Könlümün qübarı çözələnmədi.**

### *Torpaqlarımızın azadlığı*

uğrunda canından keçən şəhidlərimizə həsr etdiyi onlarla şeirlər kitabda daha çox diqqət cəlb edir.

Şəhid Mübariz Sahibovun ad gününə həsr etdiyi şeirdə yazır:

**...Görmüşdük ad günündə**
**Yaş üstünə yaş gələr.**
**Hədiyyəsi əlində**
**Yar gələr,yoldaş gələr.**

**...Bu necə ad günüdür**
**Həm yad,həm yaxın gəlir.**
**Heç kəs dəvət almayıb,**
**El gəlir,axın gəlir.**

Şairin bu qəbildən yazılan şeirləri arasında "Namus ləkəsi" adlı şeiri xüsusilə fərqlənir və mən deyərdim ki,vətənpərvərlik mövzusunda yazılan,torpaq uğrunda canından keçməyi tərənnüm edən şeirlər arasında oxucunu silkələyən,oxucuda qeyrət hissini aşılamağa səbəb yaradan güclü poeziya nümunələrindən biridir.Şair haqlı olaraq qeyd edir ki,gündə onlarla cinayət işləri törədilir və məhkəmələrdə onlarla proseslər gedir.

Biri anasını,biri bacısını,digəri həyat yoldaşını öldürür və hakimin nə üstündə öldürdün sualına müttəhim belə cavab verir: "Namus üstündə!"

Biri öz həmkəndlisini öldürdüyündə hakim müttəhimi sorğu-sual etdiyi zaman: "Qardaşımın qanını yerdə qoya bilməzdim"-deyir.

Biri digərinin pay torpağına bir neçə metr müdaxilə etdiyində: "Torpağıma girmişdi,namus kimi bir işdir..." deyə öz qatilliyinə haqq qazandırır.Həmin şeirin müəyyən hissəsində şair fikrini belə davam etdirir:

**...Sən demə namus üstə**
**Ölməyi,öldürməyi**
**Bacarırmışıq biz də**
**Demə torpaqdan ötrü**
**Ölmək qeyrəti bizdə**
**İntiqam,qisas almaq**
**Heç nəymiş əlimizdə.**

**Niyə qoruyammadıq**
**Xocalıda namusu?!**
**Dedik,soyqırım edib**
**Erməni-rus ordusu?!**

Şair həm də yaradıcılığında ikiyə bölünmüş Azərbaycanımızın "Araz dərdi"ndən, "Araz həsrəti"ndən də yazır:

**...Bir canı,bir bədəni**
**İki yerə bölən su,**
**Kədərindən bulanıb**
**Qüssəsindən ölən su.**

**Burdan niyə axırsan**
**Araz,günahkar Araz?!**
**Bir az məsum,günahsız,**
**Bir az günahkar Araz.**

Şeirin son bəndlərində müəllif bütün bu bəlaların başımıza gəlməyində,bu acıların yaşanmasında haqlı olaraq özümüzü qınayır:

**Xudafərini yıxıb**
**Arazı qınayırıq.**
**Sahillərini yaxıb**
**Arazı qınayırıq.**

**Günahkar özümüzük,**
**Qınamayın Arazı.**
**Arazın özü qədər**
**Günahımız var axı.**

### *Nəhayət,*

əlimdə olan bu kitabı vərəqlədikcə mənə elə gəlir ki, Füzuli Soltan yaradıcılığında nəinki bu kitabın daxilindəki hər bir şeirin,hətta müəllifin yazmış olduğu və bundan sonra da qələmə alacağı hər bir şeirin araşdırılmasına və tədqiqinə ehtiyac duyulur.Lakin reqlament və vaxt çərçivəsi təbii ki,buna imkan vermir.

Kitabı "dolaşdıqca" belə qənaətə gəlirsən ki, şair ikili həyat yaşayır; bir ailə-uşaq,nəvələrinə sevimli ər,ata,baba həyatı,bir də qələm həyatı,söz həyatı,yaradıcılıq həyatı.

Şair bunları bir-birindən ayırmır və hər iki həyatı alnıaçıq,üzüağ yaşayır..."Qələm qoyun yastığımın yanına"deyən şair həm də "Yazmıram ki,deyən desin "nə yaxşı",yazıram ki,ürəyimi boşaldım" deyir.Şeirlərinin birində də "Bir də bu dünyaya gəlməyim gəlmir,təzədən doğulmaq istəməzdim heç"-deyir şair.

Lakin biz də,oxucuların da sonda deyirik ki,şair,sən elə şərəfli,elə təvazökar,elə faydalı bir ömür yaşamısan ki,bundan sonra yüz kərə dünyaya gəlmək imkanın olsaydı,sənin buna haqqın,sənin buna dəyərin çatardı.

**Nəhayət, Füzuli Soltan şəxsiyyəti, Füzuli Soltan yaradıcılığı haqqındakı düşüncələrimi Qrasianın bir fikri ilə bitirmək istəyirəm.O deyirdi: "Dostlarını itirmək istəmirsənsə,onlara çox da böyük uğur arzulama".Lakin mən bu fikirlə heç də razılaşmadan gözəl qələm sahibi,səmimi dost və təvazökar insan olan Hacı Füzuli Soltan müəllimə çox böyük uğurlar arzu edirəm və inanıram ki,onun uğurlarının sayı artdıqca,şöhrəti ətrafa yayıldıqca, o,elinə,obasına və bütün dostlarına daha da sıx bağlanacaq,öz uğurlarını xaqının uğurları hesab edəcək.Mən buna əminəm!**

**Heydər Ələddinoğlu**
**AYB-nin üzvü, şair-publisist**

Ədalət 2019.- 13 noyabr.- S.7.